# RYBAILƏR*

*Ɵmər Xəjjam*



Xəjjamьn şəklini rəssam Q N İ T hazьrlamьşdьr

I

Cicək mevsimidir, cьq iztirabdan.
Buraq şəriəti, ajrьl kitabdan!
İncə gozəllərlə jaşьl cəməni
Laləzar edəlim jaqut şərabdan.

II

Varlьqь zindlərin ojrən dilindən,
Namazь, oruçu jьq təməlindən,
Sozyn doqrusunu Xəjjamdan eşit.
Şərab iç, jaxşьlьq gəlsin əlindən.

III

Gyl dedi:—Jusifəm Mьsьr cəmənim...
Doludur jaqutla, zərlə dəhənim.
—Dedim Jusifligə dəlilin?—dedi:
Baqsan komləgim qanlьdьr mənim.

IV

Bir əlimdə qədəh, birində qyr'an
Nə həlal insanam nə həram insan
Bu mavi qybbənin ətəklərində
Nə mytləq kafirəm, nə tam mysəlman

V

Hajdь Xərabata! ajaq dutalьm.
Geçəjə, gyndyzçə nəş'ə qatalьm.
Kitabь, sarьqь satalьm mejə
Gendə mədrəsəjə cigin atalьm.

VI

Ɵmrymyn qajnaqь dodaqьndadьr;
Jenə mej bardaqь dodaqьndadьr.
Qanьnь icərəm mən o saqərin
Nə ycyn dodaqь dodaqьndadьr?

VII

Aləmin qejdindən azad dejiləm
Bir nəfəs ozymdən dilşad dejiləm.
Bu qədər fələkə şagirdlik etdim,
Jenə də cahanda ustad dejiləm.

VIII

Pəjam aparьnьz məndən Xəjjama
Dejiniz bu qədər sadə dil olma.
Mən hacaq demişəm badə haramdьr
Halaldьr puxtəjə, haramdьr xama.

IX

Baqlajьb jarьna diləgimizi,
Dərdə saļmajalьm yrəgimizi.
Aj gozəl icəlim aj ьşьqьnda
Jarьn bulmajaçaq doqan aj bizi...

X

Qan'ь fələk bizə olmuş bir əngəl,
Olmuş heçligimiz ona myhəvvəl.
Cəmənlər cьqmadan topraqьmьzdan
Mehriban gozəlim cəmənzarə gəl.

XI

Cəməndə sərvidən uçadьr başьm
Rəngin gyllər mənim qoqu joldaşьm.
Bilinməz topraqьn sənlik evində
Nə ycyn syslədin bəni nəqqaşьm?

XII

Jalandan zahidlik etməkdən mənçə
Xoşdur gozəl şərab, xoşdur əjlənçə.
Çənnəti gormajə kim maraqlanar
Aşiq çəhənnəmə sərxoş girinçə.

VIII

Bir tajьfa məzhəbin, dinin jolcusu
Birində jəqin'n, şəkkin qorqusu,
Pusqudan cьqaçaq bir mynadь ki:
Nə odur, nə budur: jolun doqrusu.

XIV

Bana dejirlər ki, bir qədər az iç,
Hankь yzyr səni etməkdə təhjiç?
Yzrym jar janaqь, sabah şərabь
Bundan parlaq yzyr bulunarmь heç?

XV

At jerin belində, islamь, dini
Haqqь, həqiqəti, kyfri, jəqini.
Sajmajan bir nəfər gərdym; gorərmi
Ɵlən, qalan onun bu nəsibini?

XVI

Fərz et ki, kefindən qalmadьn, sonu?
Hasil oldu bytyn myradьn, sonu?
Jyz il əmry ejlədin oz istəginçə
Jenə də jyz sənə jaşadьn, sonu?

XVII

Jenə da aşiqlər jьqnaqьndajьz.
Sevinç badəsinin ajaqьndajьz.
Hamьmьz asuda, sərxoş, qələndər
Fələkin ən şirin bir caqьndajьz.

XVIII

Nədir bu kaşanə, nədir bu məskən?
Əfsanə omrynə qyrurlanma sən.
Ujqudaşьn kylək, jandьrdьqьn şam...,
Necin sel aqzьnda bina tikirsən?

XIX

Bu geçə kim səni ejlədi məxmur
Pərdədən səhraja ejlədin zyhur
Kim sənə səjlədi kyləklər kibi,
Od dutub jananь bir də dutuşdur.

XX

Səndən bir arzum var, ej xaçə ancaq,
Kəs səsini, məni allaha buraq.
Doqru yzym sənə əjri gorynyr
Get oz gozlərinin carəsinə baq!

Farsçadan çevirəni:
M. Myşfiq.



Zaqafqasija inçə sən'ət olimpiadasьnda iştirak etmiş Leninaqan qlubunun rəqs dərəsi.

* Zurnalьmьz oz oquçularьna verdigi və'də əsasən onları istər Qərb və istər Şərq qlassiqlərini tanьtmaqa calьşьr. Xəjjamьn rybailəri də bu maqsədlə dərç edilir.